# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı

# İLLİK MƏRUZƏ

(2024-cü il üzrə)

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı**

# İLLİK MƏRUZƏ

**(2024-cü il üzrə)**

**Bakı - 2025**

*Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzəsi (2024-cü il üzrə) "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən hazırlanmışdır.*

*Fotomateriallar, statistik göstəricilər və diaqramlarla müşayiət olunan Məruzədə 2024-cü il ərzində yerli özünüidarəetmə sahəsində görülmüş işlər qeyd olunur, mövcud problemlər təhlil edilir və onların həlli üçün tədbirlər, o cümlədən maarifləndirmə işi barədə məlumat verilir.*

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2024-cü il üzrə)

2024-cü il Azərbaycan üçün mühüm və əlamətdar ictimai-siyasi hadisələrlə zəngin olmuşdur.

Belə ki, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri sürətlə davam etdirilmiş, Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq əhalinin doğma torpaqlarına qayıdışı mərhələli şəkildə təmin olunmuşdur.

Ölkənin bütün ərazisində qanunun aliliyinin təmin edildiyi və dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edilmişdir.



*Azərbaycan Respublikasının Prezidenti seçkiləri ilə bağlı Xankəndi şəhərində səsvermə prosesində, 07.02.2024-cü il*

Eyni zamanda 7 fevral tarixində keçirilən növbədənkənar prezident seçkiləri və 1 sentyabr tarixində keçirilən Milli Məclisə növbədənkənar seçkilər Azərbaycanın müstəqilliyi tarixində ilk dəfə ölkənin bütün ərazisini, o cümlədən işğaldan azad edilmiş torpaqları əhatə etmişdir.

"Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuş 2024-cü ildə Azərbaycan iqlim dəyişmələrinə qarşı qlobal mübarizəyə və bu sahədə beynəlxalq həmrəyliyin gücləndirilməsinə öz töhfəsini vermişdir. Azərbaycan Respublikası dünyanın ən




***Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), 11-22 noyabr 2024-cü il***

mühüm və irimiqyaslı mötəbər beynəlxalq tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) yüksək səviyyədə və uğurla ev sahibliyi etməklə bütün dünyanı Bakıda birləşdirmiş və qlobal əhəmiyyətli qərarların qəbuluna nail olunmuşdur.



***“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ağacəkmə və digər ekoloji aksiyalar***

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ölkədə həmçinin, iqlim dəyişmələrinə qarşı qlobal mübarizəyə dair aktual mövzularda silsilə tədbirlər təşkil edilmiş, ətraf mühitin qorunması, yaşıllığın artırılması ilə bağlı çoxsaylı aksiyalar keçirilmişdir.

Bu çərçivədə Ədliyyə Nazirliyinin, Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının və bələdiyyələrin təşkilatçılığı ilə paytaxtda və regionlarda genişmiqyaslı ağacəkmə aksiyaları və digər ekoloji tədbirlər təşkil olunmuş, yerli iqlim şəraitinə uyğun ağaclar əkilmiş, sahilyanı zonalar məişət tullantılarından təmizlənmişdir.




Yerli özünüidarəetmənin təşkili və bələdiyyələrin formalaşmasının 25 ilinin tamam olması, eləcə də 2025-ci il yanvarın 29-na təyin edilən növbəti bələdiyyə seçkiləri də ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdəndir.

Müasir çağırışlara uyğun həyata keçirilən islahatlar ədliyyə sistemini də əhatə etmiş, bu sahədə fəaliyyətin dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülmüş, Azərbaycan Respublikası Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə 2024-cü il 4 iyun tarixli 84 nömrəli Fərmanı ilə Nazirliyin Aparatının yeni strukturu təsdiq edilmiş, o cümlədən Bələdiyyələrlə iş mərkəzi Bələdiyyələrlə iş baş idarəsi adlandırılmış, kadr islahatları aparılmışdır.

Ədliyyə Nazirliyində ideoloji fəaliyyətin həyata keçirilməsi konsepsiyası üzrə müəyyən olunmuş tapşırıqlara əsasən yerli özünüidarəetmə orqanlarının ölkəmizdə aparılan mütərəqqi islahatlara uyğun daha səmərəli fəaliyyəti üçün tədbirlər həyata keçirilməkdədir.

İl ərzində yerli özünüidarəetmənin inkişafı məsələləri diqqətdə saxlanılaraq bələdiyyələrin fəaliyyətində qanunçuluğa əməl edilməsi, qanunvericiliyin tələblərinin pozulması hallarının, onları yaradan səbəb və şəraitin aradan qaldırılması, bələdiyyələrə göstərilən metodoloji köməkliyin gücləndirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Yerli özünüidarəetmə fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilmiş və mövcud qanunvericiliyə bir sıra dəyişikliklər olunmuşdur.

Belə ki, ölkə Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsi, onların fəaliyyətində korrupsiya hüquqpozmalarını yaradan səbəb və şəraitin aradan qaldırılması, yerli özünüidarəetmədə aşkarlıq, şəffaflıq və hesabatlılığın gücləndirilməsi, həmçinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılması üçün qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun, Azərbaycan Respublikası Prezidentinin "Bələdiyyələrin Nümunəvi Reqlamenti"nin təsdiq edilməsi haqqında" 2012-ci il 21 dekabr tarixli 792 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" fərman layihələri hazırlanmışdır.


"Bələdiyyələrin statusu haqqında" və
"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında"
Azərbaycan Respublikasının qanunlarında
dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq qərara alır:
Maddə 1. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405 (Cild I); 2024, № 4, maddə 370) aşağıdakı dəyişikliklər edilsin:
1.1. 16-cı maddə üzrə:
1.1.1 aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:
"1-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tətbiq edilməsi və bələdiyyə iclasının iclas zalında bilavasitə iştirak etməklə keçirilməsini mümkünsüz edən digər hallarla əlaqədar bələdiyyə iclasları həmin dövr üçün videokonfrans əlaqə sistemi vasitəsilə keçirilə bilər.";
1.1.2. 2-ci hissənin dördüncü cümləsində "onun səlahiyyətlərini həyata keçirən müavini" sözləri "sədr vəzifəsini icra edən şəxs" sözləri ilə əvəz edilsin;
1.1.3. 5-ci hissənin birinci cümləsində "onun müavini" sözləri "sədr vəzifəsini icra edən şəxs" sözləri ilə əvəz edilsin;
1.2. aşağıdakı məzmunda 16-1-ci maddə əlavə edilsin:
"Maddə 16-1. Yeni seçilmiş bələdiyyənin ilk iclasının keçirilməsi
Yeni seçilən bələdiyyənin ilk iclası Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən bələdiyyə seçkilərinin yekunları elan edildikdən sonra 5 iş günü müddətində keçirilir.
Bələdiyyənin ilk iclasında bələdiyyənin sədri seçilənədək yaşı daha çox olan üzv iclasa sədrlik edir.
İclasa sədrlik edən bələdiyyəyə üzv seçilmiş şəxslərin siyahısını elan edir, ilk iclası bələdiyyə sədri və iclas katibi seçilənədək aparır.
Bələdiyyənin sədri açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur.
Bələdiyyənin ilk iclasında bələdiyyə sədri və iclas katibi seçildikdən sonra iclasın gündəliyi təsdiq edilir.";
1.3. 17-ci maddənin 1-ci hissəsində "bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların" sözləri "bələdiyyələrə məxsus hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin;
1.4. 19-cu maddə üzrə:
1.4.1. 1-ci hissə ləğv edilsin;
1.4.2. 3-cü hissəyə "Bələdiyyənin sədri" sözlərindən sonra "(və ya sədr vəzifəsini icra edən şəxs)" sözləri əlavə edilsin və həmin hissədə "1-ci və 2-ci

Maddə 2. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 268 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:
2.1. 6-cı maddə üzrə:
2.1.1. 6.1-ci maddədə "aktların bir surətini həmin aktların qəbul edildiyi andan 5 iş günündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər" sözləri "aktları qəbul edildiyi tarixdən 3 iş günündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində (bundan sonra – informasiya sistemi) yerləşdirməlidirlər" sözləri ilə əvəz edilsin;
2.1.2. 6.2-ci maddədə "daxil olduğu" sözləri "informasiya sistemində yerləşdirildiyi" sözləri ilə əvəz edilsin, həmin maddəyə "günü" sözündən sonra ", əlavə araşdırma tələb olunarsa, 30 iş günü" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:
"İcraat zamanı əlavə məlumatların və ya sənədlərin əldə edilməsi tələb edildikdə, inzibati nəzarəti həyata keçirən orqanın həmin müddəti 30 iş günü uzatmaq hüququ vardır.";
2.2. 7-ci maddə üzrə:
2.2.1. 7.3.1-ci maddədə "tutulmuş" sözündən sonra "qaydada" sözü əlavə edilsin;
2.2.2. 7.3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:
"7.3.2. inzibati nəzarət icraatına başlamaqdan imtina edir və bu barədə müraciət edənə əsaslandırılmış rəsmi məlumat göndərir.";
2.3. 8-ci maddə üzrə:
2.3.1. 8.1-ci maddə aşağıdakı redaksiyada verilsin:
"8.1. İnzibati nəzarət icraatı bu Qanunun 5.0.1-ci maddəsi ilə müəyyən edilən əsas üzrə aparıldıqda, inzibati nəzarət icraatının başlanma tarixi bələdiyyə aktının informasiya sistemində yerləşdiyi gündən hesablanır.
Bu Qanunun 5.0.1-ci maddəsi ilə müəyyən edilən əsas üzrə inzibati nəzarət icraatı bu Qanunun 8.1-ci maddəsinin üçüncü abzası nəzərə alınmaqla informasiya sistemi vasitəsilə həyata keçirilir.
İnzibati nəzarəti həyata keçirən orqan bu Qanunun 5.0.1-ci və 5.0.2-ci maddələri ilə müəyyən edilən əsaslar üzrə inzibati nəzarət icraatı zamanı mübahisə doğuran bələdiyyə aktının və bu aktın qəbul edilməsi ilə bağlı əlavə sənədlərin və ya məlumatların ona göndərilməsi barədə müvafiq bələdiyyəyə müraciət edir. Bələdiyyə həmin sənədləri və ya məlumatları sorğunu aldığı tarixdən 3 iş günü ərzində, həmin sənədlərin və ya məlumatların əldə edilməsi əlavə zaman tələb etdiyi halda isə 10 iş günü ərzində inzibati nəzarəti həyata keçirən orqana informasiya sistemi vasitəsilə təqdim edir.";
2.3.2. 8.3-cü maddənin birinci cümləsində "müraciətin araşdırılması" sözləri "inzibati nəzarət icraatı" sözləri ilə, "aşkar" sözü "müəyyən" sözü ilə əvəz edilsin;
2.3.3. 8.4-cü maddə üzrə:
2.3.3.1. birinci cümlədə "bu Qanunun 5.0.1-ci maddəsində nəzərdə tutulmuş hallarda və ya daxil olmuş müraciətin araşdırılması" sözləri "inzibati nəzarət icraatı" sözləri ilə, "aşkar" sözü "müəyyən" sözü ilə, "müraciət" sözü "təklif təqdim edərək informasiya sistemində müvafiq aktın qarşısında qeyd" sözləri ilə əvəz edilsin;
2.3.3.2. ikinci cümlədə "müraciətə" sözü "təklifə" sözü ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 oktyabr 2024-cü il
№ 49-VIIQD

"Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanunu və həmin Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 dekabr tarixli 238 nömrəli Fərmanı qəbul edilmişdir.

Bununla yanaşı, bələdiyyələrin fəaliyyətində aşkarlıq, şəffaflıq və hesabatlılığın təmin edilməsi, bələdiyyələrin gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması ilə bağlı qanunvericilik bazasının formalaşdırılması məqsədilə Nazirlik tərəfindən hazırlanmış "Büdcə sistemi haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2024-cü il 10 dekabr tarixli Qanunu qəbul olunmuşdur.

Həmçinin "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli 233 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Fərman layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.




İl ərzində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 102831 (o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində - 2557) bələdiyyə aktı hüquqi ekspertizadan keçirilmiş, nəticədə 99838 (97%) aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilmişdir. Normativ hüquqi aktların tələblərinə zidd olan 2594 (2,5%) aktın dəyişdirilməsi və ya ləğv

edilməsi üçün "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aidiyyəti bələdiyyələrə təkliflər verilmiş, 399 (0,5%) akt isə baxılmaqdadır. Verilmiş təkliflər əsasında bələdiyyələr tərəfindən 1342 (51,7%) akt ləğv edilmiş, 1133 (43,7%) akt dəyişdirilmiş, 110 (4,2%) təklif isə baxılmaqdadır. Bələdiyyələr tərəfindən təmin olunmayan 9 (0,4%) təklif üzrə aidiyyəti məhkəmələrdə iddia qaldırılmışdır.




Bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş 4337 müraciətdən 3963-nə (91,4%) baxılmış, 129-u (3%) aidiyyəti üzrə göndərilmiş, 245 (5,6%) müraciət isə baxılmaqdadır. Müraciətlər üzrə inzibati nəzarət icraatı nəticəsində aşkar edilərək dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı aidiyyəti bələdiyyələrə verilmiş təkliflər əsasında qanunvericiliyin tələblərinə zidd 74 bələdiyyə aktının hamısı ləğv edilmişdir.




Ümumilikdə həm aktlar, həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı təklif verilmiş 2668 aktdan 1416-sı (53,1%) ləğv edilmiş, 1133-ü (42,5%) dəyişdirilmiş, 9 (0,3%) təklif üzrə məhkəmələrdə iddia qaldırılmış, 110 (4,1%) təklif isə baxılmaqdadır.

Qeyd olunur ki, vətəndaş məmnunluğu və insanlara layiqli xidmət ədliyyə fəaliyyətinin əsas prioritetlərindəndir. Bununla bağlı dövlət başçısının tələbləri rəhbər tutulmaqla bələdiyyələrlə iş sahəsində də vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulmasına, vətəndaşların müraciətlərinə diqqət və həssaslıqla yanaşılmasına xüsusi diqqət yetirilir.

İl ərzində bələdiyyə fəaliyyəti ilə bağlı baxılmış müraciətlərin 463-ü təmin edilmiş, şəhid ailə üzvlərinin, müharibə əlili və iştirakçılarının müraciətləri xüsusilə nəzarətdə saxlanılmış və belə müraciətlərdən 108-i təmin olunmuşdur. Müraciətlərin həlli istiqamətində göstərilən diqqətə və qayğıya görə 20 vətəndaşın (o cümlədən 9 şəhid ailə üzvü, müharibə əlili və iştirakçısı) təşəkkür ifadə edən məktubları daxil olmuşdur.

2024-cü il ərzində yerli büdcə vəsaitlərinin səmərəli istifadə olunması, bələdiyyə əmlakının (o cümlədən torpaqların) idarə edilməsi sahəsində qanunçuluğun və şəffaflığın təmin edilməsi, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması üzrə inzibati nəzarət qaydasında tədbirlər görülmüşdür.

Belə ki, aparılmış araşdırmalar zamanı 51 halda (2023-cü ildə 30) ciddi qanun pozuntuları aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilmişdir. Həmin materiallardan 21-i (2023-cü ildə 15) üzrə cinayət işi başlanmışdır. O cümlədən:

- Daşkəsən rayonu Çanaqçı bələdiyyəsinin sabiq vəzifəli şəxsləri tərəfindən kollegiallıq prinsiplərinə əməl edilmədən bələdiyyə mülkiyyətinə aid torpaq sahələrinin ayrılması barədə saxta qərarlar tərtib edilməsi faktı üzrə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır;
- Daşkəsən rayonu Çovdar bələdiyyəsinin sədri tərəfindən yerli büdcə vəsaitlərinin mənimsənilməsi və bələdiyyə əmlaklarının israf edilməsi faktı üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 179.2.3-cü, 179.2.4-cü (mənimsəmə və ya israf etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır;
- Neftçala rayonu Xolqarabucaq bələdiyyəsinin sədri Q.Qəfərovun qanunsuz hərəkətləri faktı üzrə Neftçala rayon prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 314.1-ci (səhlənkarlıq) maddəsi ilə cinayət işi başlanmışdır;
- Ağsu rayonu İlxıçı bələdiyyəsinin 2020-2023-cü illər üzrə fəaliyyətinin yoxlanılması nəticəsində bələdiyyənin vergi müfəttişinin bələdiyyə mülkiyyətinə aid torpaq sahələrinin icarə haqlarını nağd qaydada yığaraq yerli büdcəyə ödəməməsi faktı üzrə Ağsu rayon prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 179.3-cü (mənimsəmə və ya israf etmə) maddəsi ilə cinayət işi başlanmışdır;
- Göygöl rayonu Toğanalı bələdiyyəsinin sədri tərəfindən bələdiyyənin adından iclas protokolları tərtib edilərək yerli (bələdiyyə) büdcə vəsaitlərinin xərclənməsinə və torpaq sahələrinin ayrılmasına dair təkbaşına qərarlar verilməsi faktı üzrə Göygöl rayon prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır;
- Cəlilabad rayonu Ağdaş bələdiyyəsinin 2018-2023-cü illər və 2024-cü ilin 5 ayı üzrə fəaliyyətinin yoxlanılması nəticəsində bələdiyyə əmlakının israf edilməsi faktı üzrə Cəlilabad rayon prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır;
- Saatlı rayonu Mircəlal bələdiyyəsinin 2020-2023-cü illər üzrə fəaliyyətinin yoxlanılması nəticəsində yerli büdcə vəsaitlərinin mənimsənilməsi və bələdiyyə

əmlakının israf edilməsi faktı üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 179.2.3-cü, 179.2.4-cü (mənimsəmə və ya israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır;

- Astara rayonu Şahağacı bələdiyyəsinin 2018-2023-cü illər və 2024-cü ilin 6 ayı üzrə fəaliyyətinin yoxlanılması nəticəsində bələdiyyə iclasında qərar qəbul edilmədən hərrac və ya müsabiqədən kənar qaydada bələdiyyə mülkiyyətinə aid torpaq sahəsinin real dəyərindən aşağı qiymətə icarəyə ayrılması faktı üzrə Astara rayon prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178.2.1-ci, 178.2.2-ci, 178.2.3-cü (dələduzluq) və 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət işi başlanmışdır.

Həmçinin Saatlı rayonu Nabatkənd, Göygöl rayonu Çaykənd, Cəlilabad rayonu Cəlilabad, Şəmkir rayonu Qılıncbəyli, Ağcabədi rayonu Ağcabədi, İsmayıllı rayonu Qalagah və s. bələdiyyələrin vəzifəli şəxslərinin fəaliyyəti barəsində toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilmişdir.

Daxil olmuş müraciətlərin intensivliyi, xarakteri və bələdiyyələr barədə məlumatların təhlilinin nəticələri nəzərə alınaraq son 5 il ərzində 158 bələdiyyənin (2020-ci ildə - 23; 2021-ci ildə - 27; 2022-ci ildə - 27; 2023-cü ildə - 30 və 2024-cü ildə - 51) fəaliyyətində cinayət əlamətləri aşkar edildiyindən toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün istintaq orqanlarına göndərilmişdir.

Bu istiqamətdə aparılan təhlillər göstərir ki, bələdiyyələrin fəaliyyətində rast gəlinən pozuntular əsas etibarilə bələdiyyə torpaqlarının idarə edilməsi, maliyyə vəsaitlərindən istifadə, şəffaflıq və hesabatlılığın təmini, bələdiyyə idarəçiliyi və digər məsələləri əhatə edir.

Təhlillərin nəticələrinə əsasən yerli özünüidarəetmə fəaliyyətində yol verilən aşağıdakı səciyyəvi nöqsanları göstərmək olar:

*- Bələdiyyənin adından başqalarına hüquq verən saxta sənədlərin hazırlanması;*

*- Bələdiyyə mülkiyyətinə aid torpaq sahələrinin saxta sənədlər əsasında satılması;*

*- Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən bələdiyyə əmlakı barəsində təkbaşına qərar verilməsi;*

*- Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən bələdiyyə torpaqlarının istifadəsi və mühafizəsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməməsi;*

*- Bələdiyyə əmlakının mənimsənilməsi və ya israf edilməsi;*

*- Bələdiyyə mülkiyyətində olan torpaq sahələri fərdi yaşayış evinin tikintisi üçün bilavasitə satıldıqda qiymətinin, habelə hərraca və ya müsabiqəyə çıxarılan torpaqların ilkin qiymətinin bazar qiyməti nəzərə alınmadan real dəyərindən daha aşağı müəyyən edilməsi;*

*- Bələdiyyənin vəzifəli şəxslərinin səhlənkarlığı nəticəsində yerli vergi və ödənişlərin, o cümlədən icarə haqlarının toplanması işi aşağı səviyyədə təşkil edilməklə bələdiyyənin maliyyə vəziyyətinin əsaslı şəkildə pisləşməsi.*

Bələdiyyələrin fəaliyyəti ilə bağlı vətəndaş şikayətlərinin əsas səbəbləri araşdırılmış və təhlillər nəticəsində məlum olmuşdur ki:

- Bakı şəhəri üzrə bələdiyyələr tərəfindən əsasən ötən dövrlərdə qanunsuz torpaq sahələrinin ayrılması, vergitutma obyektlərinin uçotu və yerli vergilərin hesablanmasında qanunvericiliyin tələblərinin pozulması, yerli əhəmiyyətli məsələlərin həlli, o cümlədən abadlaşdırma və yaşıllıqların mühafizəsi ilə bağlı vəzifələrin lazımi səviyyədə yerinə yetirilməməsi hallarına rast gəlinir;
- Region bələdiyyələri tərəfindən əsasən torpaq sahəsinin ayrılması ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilməməsi, bələdiyyə torpaqlarının zəbt edilməsi, yaxud təyinatından kənar istifadə edilməsi, qeyri-qanuni istifadə olunan, habelə icarə müddəti bitmiş torpaqların bələdiyyənin sahibliyinə qaytarılması və dəymiş ziyanın ödənilməsi istiqamətində hər hansı tədbir görülməməsi kimi nöqsanlara yol verilir.

Bu şikayətlərin əsas səbəbi əhalinin bələdiyyə torpaqlarının ayrılması ilə bağlı qanunvericiliyin tələblərini bilməməsi, bələdiyyələrdə mülkiyyətlərinə aid torpaqlar barədə ətraflı məlumatın olmaması, torpaqayırma prosedurlarının uzun müddət tələb etməsi, bələdiyyə torpaqları üzərində nəzarətin, o cümlədən torpaqların mühafizəsinin düzgün təşkil edilməməsi, bəzən isə bələdiyyələrin vəzifəli şəxslərinin bələdiyyə torpaqlarından qanunsuz istifadəyə şərait yaratmasıdır.

İnzibati nəzarət zamanı müəyyən edilmiş hüquq pozuntuları və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınması məqsədilə ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri (vətəndaş məmnunluğunun yüksəldilməsi, bələdiyyə aktlarının qəbulu, debitor və kreditor borclarının dəqiq uçotunun aparılması, vergi və ödənişlərin toplanılmasında nəzarətin gücləndirilməsi, yerli büdcə layihəsinin müzakirəsi və təsdiqi, büdcə vəsaitlərindən istifadə, yerli vergilərin hesablanması, bələdiyyə torpaqlarının idarə olunması, şəffaflığın təmini və s.) əhatə edən tövsiyələr hazırlanaraq göndərilmişdir.




İl ərzində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 549-cu (bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın fəaliyyətinə mane olma) maddəsi ilə 103 inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilmiş, həmin protokollar əsasında 77 bələdiyyənin vəzifəli şəxsi məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb edilmiş, 15 inzibati xəta protokoluna xitam verilmiş və 11-i isə hazırda məhkəmələrin icraatındadır.

Bələdiyyələrlə onların fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan arasında elektron sənəd dövriyyəsi təşkil edildikdən sonra bələdiyyə aktlarının vaxtında

təqdim edilməməsi hallarının, habelə bununla bağlı bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən törədilən inzibati xətaların sayı əhəmiyyətli dərəcədə azalmışdır.

2024-cü ildə də bələdiyyələrin maliyyə imkanlarının yaxşılaşdırılması məqsədilə büdcə gəlirlərinin artırılması, o cümlədən vergitutma obyektlərinin uçotunun dəqiqləşdirilməsi və uçotdan kənarda qalan vergitutma obyektlərinin vergiyə cəlb edilməsi, vergilərin və digər debitor borcların qanunauyğun hesablanaraq yığılması, əvvəlki illərdə icarəyə verilmiş bələdiyyə torpaqlarının icarə haqlarının mövcud bazar qiymətlərinə uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 9 aylıq məlumatına əsasən əvvəlki illə müqayisədə 2024-cü ildə yerli büdcə gəlirləri 7,1 milyon manat (18,6%), o cümlədən yerli vergilərdən daxil olmalar 3,4 milyon manat (21,2%) artmışdır.

Bələdiyyə torpaqlarından yerli əhalinin mənafeyi naminə qanunauyğun və səmərəli istifadə olunması da yerli büdcə gəlirlərinin artımına müsbət təsir göstərir. Bu sahədə işlərin davamlılığı il ərzində diqqətdə saxlanılmışdır.







İnzibati nəzarət tədbirləri çərçivəsində ümumilikdə 9720 ha torpaq sahəsinin qanunsuz ayrılmasına dair bələdiyyə aktlarının ləğv edilməsi məqsədilə Nazirlik tərəfindən bələdiyyələrə təklif və ya məhkəmələrə iddialar verilmişdir. Nəticədə 9686 ha torpaq sahəsinin icarəyə, 34 ha torpaq sahəsinin isə mülkiyyətə verilməsi haqqında qanunsuz qərarlar ləğv edilmişdir.

İl ərzində örüş sahələrinin qanunsuz olaraq ayrı-ayrı şəxslərə ayrılması, zəbt olunması və digər pozuntulara qarşı qanunamüvafiq tədbirlər davam etdirilmiş, nəticədə 3376 ha örüş sahəsi ilə bağlı qanunsuz bələdiyyə aktları inzibati nəzarət orqanının təklifləri və ya məhkəmələrə verilmiş iddialar əsasında ləğv olunmuş və ya dəyişdirilmişdir.

"Elektron icra" informasiya sistemi vasitəsilə əldə edilmiş məlumata əsasən 2024-cü il ərzində debitor borcların ödənilməsi ilə bağlı bələdiyyələr tərəfindən qəbul edilmiş 11290 inzibati akt (2023-cü il ərzində 5585) icra məmurları tərəfindən icraata qəbul olunmuş və icraatda qalıqla birgə 16785 inzibati akt olmuşdur. Onlardan 6669 aktın (2023-cü il ərzində 7523) icrası təmin edilmişdir.

Dövlət büdcəsində yerli büdcələrə dəstək üçün nəzərdə tutulmuş dotasiya və subvensiyaların məbləğinin əvvəlki illə müqayisədə artırılması yerli özünüidarəetmənin inkişafına dövlət tərəfindən verilən önəmin daha bir göstəricisidir. Belə ki, 2024-cü il ərzində dövlət büdcəsindən bələdiyyələrə göstərilən maliyyə dəstəyinin (dotasiya və subvensiya) məbləği artaraq ilk dəfə 8 milyon manatdan çox vəsait ayrılmışdır.

Yerli özünüidarəetmə sahəsində aşkarlığın, şəffaflığın, ictimai iştirakçılığın artırılması ilə bağlı da ardıcıl tədbirlər görülmüşdür.

İl ərzində yerli özünüidarəetmə sahəsində görülən işlər barədə vətəndaşların məlumatlandırılması, eləcə də aktual məsələlərlə bağlı bələdiyyələrin maarifləndirilməsi məqsədilə media subyektlərinin imkanlarından geniş istifadə edilmişdir.

Belə ki, qeyd edilən dövr ərzində hazırlanmış müxtəlif tövsiyələr, bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsi üzrə keçirilmiş müxtəlif tədbirlər (seminar, müşavirə, konfrans və s.) Ədliyyə Nazirliyinin rəsmi saytında (justice.gov.az), "Bələdiyyələrlə iş" informasiya sistemində (belediyye.gov.az) və digər saytlarda işıqlandırılmışdır.

Ümumilikdə media subyektlərində Ədliyyə Nazirliyinin yerli özünüidarəetmə sahəsində gördüyü işlərlə bağlı 225 məlumat dərc edilmişdir.




Bununla yanaşı, insanların rifahının yaxşılaşdırılması naminə sosial, iqtisadi, ekoloji və digər sahələrdə tədbirlərin həyata keçirilməsində, yerli əhəmiyyətli məsələlərin həllində iştirak edən bələdiyyələrin rolunun ölkə ictimaiyyətinə çatdırılması məqsədilə 2024-cü ildə Nazirliyin tövsiyəsi və metodiki köməkliyi ilə bir sıra bələdiyyələr (Binəqədi, Bərdə, Şəmkir, Siyəzən, Tüləkəran (Quba), Masallı, Ərkivan (Masallı), Cəlilabad, Göytəpə (Cəlilabad), Lənkəran və s. bələdiyyələr) tərəfindən yerli əhalinin rifahı naminə görülən işlər barədə bukletlər, broşürlər, video-çarxlar hazırlanaraq təqdim olunmuşdur.

Bələdiyyə fəaliyyəti barədə ictimaiyyətin ətraflı məlumatlandırılması məqsədilə sosial media vasitələrindən də aktiv istifadə edilərək yerli özünüidarəetmə üzrə Əlaqələndirmə Şuralarının "facebook" səhifələrində mütəmadi məlumatlar paylaşılmışdır.

Ölkə üzrə 1291 bələdiyyə tərəfindən aktların "Bələdiyyələrlə iş" informasiya sistemi vasitəsilə elektron qaydada inzibati nəzarət orqanına təqdim olunması təmin edilmişdir.

2024-cü ildə Ədliyyə Nazirliyi tərəfindən həmçinin müxtəlif maarifləndirmə və tədris tədbirləri təşkil olunmuş, tövsiyələr hazırlanmış, digər dövlət qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilmişdir.




Belə ki, il ərzində bələdiyyələrin hüquqi maarifləndirilməsi məqsədilə bütövlükdə 295 maarifçilik tədbiri həyata keçirilmiş, bu tədbirlərdə 8912 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir.

Ədliyyə Nazirliyi tərəfindən 248 seminar (6909 dinləyici), 30 onlayn tədris kursu (1206 dinləyici) təşkil olunmuşdur. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin maarifləndirilməsi üçün keçirilmiş 17 seminarda 797 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir.

Seminar və kurslar əsasən aşağıdakı mövzuları əhatə etmişdir:




**Bələdiyyələrlə iş baş idarəsi və regional ədliyyə idarələri tərəfindən təşkil olunan bələdiyyə üzv və qulluqçularının maarifləndirilməsi ilə bağlı seminar-müşavirələr**

*- Normativ xarakterli bələdiyyə aktlarının Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunmasının zəruriliyi;*

*- Korrupsiya ilə əlaqədar hüquqpozmaların aradan qaldırılmasının əhalinin yerli özünüidarəetməyə olan etimadının yüksəlməsinin əhəmiyyəti;*

*- Bələdiyyələr tərəfindən yaradılan müəssisələrin yerli büdcəyə mənfəət vergisi ödəmək vəzifəsi, mənfəət vergisinin hesablanması və ödənilməsi ilə bağlı qanunvericiliyin tələbləri;*

*- Bələdiyyələr tərəfindən inşa edilmiş qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin bələdiyyələrin balansına qəbul edilməsi;*

*- Müasir informasiya texnologiyalarından istifadə etməklə yerli büdcə vəsaitlərindən səmərəli istifadə olunması;*

*- Bələdiyyələrin birləşməsi ilə bağlı qanunvericilikdə edilmiş müvafiq dəyişikliklər;*

*- Bələdiyyə mülkiyyətində olan torpaqların müsabiqə və ya hərrac vasitəsi ilə icarəyə verilməsi sahəsində bələdiyyələrin hüquq və vəzifələri;*

*- Yerli büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı yol verilən xarakterik pozuntular və onların qarşısının alınması;*

*- Yerli özünüidarəetmə sahəsində şəffaflığın və hesabatlılığın təmin olunmasında müasir informasiya resurslarının əhəmiyyəti;*

*- Bələdiyyələr tərəfindən kargüzarlığın və arxiv işinin düzgün təşkil olunması ilə bağlı hüquq pozuntularının qarşısının alınmasına dair qanunvericiliyin tələbləri və s.*

Bundan əlavə, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planında, həmçinin onun ədliyyə orqanlarında icrası üzrə İş Planında müəyyən edilmiş tapşırıqların icrası məqsədilə bələdiyyə üzv və qulluqçularına "Korrupsiya hüquqpozmalarına şərait yaradan halların qarşısının alınmasının və etik davranış qaydalarına riayət edilməsinin yerli özünüidarəetmənin həyata keçirilməsində əhəmiyyəti" mövzusunda təlimlər təşkil edilmişdir. Təlimlərdə korrupsiyaya qarşı mübarizə, etik davranış qaydaları, maraqların toqquşması mövzuları tədris olunmuş, təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.




***"Korrupsiya hüquq pozuntularının aradan qaldırılmasının əhalinin yerli özünüidarəetməyə olan etimadının yüksəlməsinin əhəmiyyəti" mövzusunda onlayn seminar, 15.03.2024-cü il***

Eyni zamanda bələdiyyə üzv və qulluqçularına "İnsan hüquq və azadlıqlarının təmin olunmasında bələdiyyələrin rolu" mövzusunda təlimlər keçirilmişdir.

Göstərilənlərlə yanaşı, qanunvericiliyin tələblərinə əməl edilməsi ilə bağlı müxtəlif aktual məsələləri əhatə edən 29 metodik tövsiyə hazırlanaraq bələdiyyələrə çatdırılmışdır. Həmin tövsiyələrdə əsas etibarilə aşağıdakı məsələlərə toxunulmuşdur:

*- "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 21 noyabr tarixli Sərəncamından irəli gələn məsələlər barədə;*

*- "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamından irəli gələn məsələlər barədə;*

*- Bələdiyyə torpaqlarının icarəyə və subicarəyə verilməsi barədə;*

*- Bələdiyyələrin ərazilərində yerləşən su təsərrüfatı obyektlərinin istifadəsi və onların mühafizəsi ilə əlaqədar qanunvericiliyin tələbləri barədə;*

*- Yerli səviyyədə turizmin inkişafında bələdiyyələrin iştirakı barədə;*

*- Yerli özünüidarəetmənin həyata keçirilməsində etik davranış qaydalarına əməl olunmasının insan hüquqlarının müdafiəsində əhəmiyyəti barədə;*

*- Əməyin mühafizəsi sahəsində bələdiyyələrin səlahiyyətləri barədə;*

*- Yerli (bələdiyyə) vergilərin yığılması ilə bağlı qanunvericiliyin tələbləri barədə;*

*- Torpaq münasibətlərinin tənzimlənməsində qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət tədbirləri barədə;*

*- Bələdiyyə torpaqlarının idarə edilməsi ilə bağlı yol verilən xarakterik pozuntular və onların qarşısının alınması barədə;*

*- "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında edilmiş dəyişikliklər barədə və s.*

Həmçinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar edilmiş qanun pozuntularının və nöqsanların aradan qaldırılması, eləcə də təkrar törədilməsinin qarşısının alınması məqsədilə ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 14437 tövsiyə göndərilmişdir.




Bələdiyyələrdə kargüzarlıq və arxiv işinin düzgün təşkili məqsədilə il ərzində 112 bələdiyyədə kargüzarlıq və sənədlərin arxivləşdirilməsi vəziyyəti yerində öyrənilmiş, bu sahədə mövcud pozuntuların aradan qaldırılması üçün bələdiyyələrə kömək göstərilmişdir.

Ölkəmizdə yerli özünüidarəetmənin səmərəliliyinin artırılması məqsədilə 2024-cü il ərzində Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanları (qurumları), o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi və onun aidiyyəti komitələri ilə sıx əməkdaşlıq davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yerli özünüidarəyə (bələdiyyələrə) dair qanunvericiliyin icrası vəziyyətinin monitorinqi ilə əlaqədar sorğusu üzrə bələdiyyələrin fəaliyyəti, eləcə də montorinqin nəticələrinə dair arayışda qaldırılmış məsələlər barədə məlumatlar hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.




***Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzənin (2023-cü il üzrə) Azərbaycan Respublikası Milli Məclisinin iclasında dinlənilməsi, 24.02.2024-cü il***

Eyni zamanda, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı nazirliyin 2023-cü il üzrə illik məruzəsinin Milli Məclisdə müzakirəsi zamanı yerli özünüidarəetmənin problemləri ilə bağlı deputatlar tərəfindən qaldırılmış məsələlər fəaliyyətdə nəzərə alınmış, həmin məsələlərlə bağlı ümumiləşdirilmiş məlumatlar, o cümlədən "qəbiristanlıqların təhvil verilməsi vəziyyəti barədə" hazırlanmış məlumat Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinə, "Dövlət büdcəsindən bələdiyyələrə ayrılan dotasiya və subvensiyaların gəlir gətirən istehsal, xidmət sahələrinin yaradılmasına yönəldilməsi" barədə məktub isə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilmişdir.

İl ərzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə də qarşılıqlı fəaliyyət həyata keçirilmiş, Xidmətin, Bələdiyyələrlə iş baş idarəsinin rəhbərliyi və əməkdaşları tərəfindən təşkil edilən görüşlərdə bələdiyyə torpaqlarının idarə edilməsi, torpaqayırma prosesində qarşıya çıxan problemlər və onların həlli yolları, habelə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn məsələlərlə bağlı müzakirələr aparılmışdır.

4 dekabr 2024-cü il tarixdə keçirilmiş görüşdə yerli özünüidarəetmə fəaliyyəti ilə bağlı dövlət proqramlarında nəzərdə tutulmuş tapşırıqların icrası üçün qarşıda duran vəzifələr və digər məsələlər barədə fikir mübadiləsi aparılmış, bələdiyyələr tərəfindən Xidmətə edilən müraciətlərin və onlara baxılmasının rəqəmsallaşdırılması məqsədilə Xidmət tərəfindən hazırlanmış informasiya sisteminin ilkin versiyasının təqdimatı keçirilərək onun təkmilləşdirilməsi ilə bağlı təkliflər səsləndirilmişdir.

2024-cü ilin sentyabr və oktyabr aylarında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və Ədliyyə Nazirliyinin birgə



*Dövlət İdarəçilik Akademiyası ilə birgə tələbələr üçün təşkil edilmiş bələdiyyə fəaliyyəti ilə bağlı seminar*

təşkilatçılığı ilə "Azərbaycanda yerli özünüidarəetmə", "Bələdiyyələrin fəaliyyətində gənclərin rolu" və "Bələdiyyələrin fəaliyyətində qadınların rolu" mövzularında silsilə tədbirlər təşkil edilmişdir.

6 dekabrda isə yaşıllıqların mühafizəsi, o cümlədən parklarda və yol kənarındakı yaşıllıq zolaqlarında fitosanitar sabitliyin təmin edilməsi ilə bağlı görüləcək tədbirlərin müzakirəsi məqsədilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkil etdiyi tədbirdə Ədliyyə Nazirliyinin səlahiyyətli nümayəndəsi tərəfindən çıxış edilmişdir.





*"Bələdiyyələrdə yaradılmış gender komissiyalarının işinin gücləndirilməsi" mövzusunda konfrans, 19.12.2024-cü il*

Eyni zamanda 19 dekabrda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Bələdiyyələrdə yaradılmış gender komissiyalarının işinin gücləndirilməsi" mövzusuna həsr olunmuş konfrans keçirilmiş və ailələrdə gender münasibətlərinin formalaşdırılması, gender zorakılığının qarşısının alınması, bələdiyyə komissiyalarının işinin təşkili, mövcud vəziyyətin təhlili və s. barədə fikir mübadiləsi aparılmışdır. Tədbirdə Ədliyyə Nazirliyinin aidiyyəti məsul nümayəndələri iştirak etmişlər.

İl ərzində xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları arasında səmərəli təcrübə mübadiləsi aparılmışdır.

- Bələdiyyə işinin təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə Türkiyə, Gürcüstan, Latviya və Litva bələdiyyə birlikləri ilə onlayn görüşlər keçirilmişdir;

- 2024-cü ilin müxtəlif dövrlərində (yanvar, aprel, iyul aylarında) Türkiyə Respublikasının İstanbul şəhərində Türk Dünyası Bələdiyyələr Birliyinin İdarə Heyətinin iclaslarında, eləcə də COP29 çərçivəsində təşkil edilən pavilyonlarda Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının nümayəndələrinin iştirakı təmin edilmişdir;

- 24-28 iyun tarixlərində İspaniya Krallığının Valensiya şəhərində "İqlim Şəhərləri Həftəsi" çərçivəsində keçirilmiş tədbirdə Abşeron rayonu Xırdalan bələdiyyəsinin nümayəndəsi iştirak etmişdir;




*Kipr Türk Bələdiyyələri Birliyi ilə Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyası arasında əməkdaşlıq protokolunun imzalanması, 27.09.2024-cü il*

- 27 sentyabr tarixində Şimali Kipr Türk Respublikasının Girne şəhərində Kipr Türk Bələdiyyələr Birliyi ilə Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyası arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır;

- 9 və 19 noyabr tarixlərində Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları ilə Türkiyə Bələdiyyələr Birliyi arasında görüş keçirilmiş və iki ölkənin bələdiyyələri arasında mövcud əməkdaşlığın və birgə layihələrin genişləndirilməsi barədə müzakirələr aparılmışdır.



*Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları və Türkiyə Bələdiyyələr Birliyi arasında görüş, 19.11.2024-cü il*

2024-cü ildə ölkəmizdə bələdiyyələrin yaranmasının 25 ilinin tamam olması ilə əlaqədar Milli Məclisin Regional məsələlər komitəsi, Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları və digər aidiyyəti qurumların iştirakı ilə ilboyu silsilə tədbirlər həyata keçirilmişdir.



**"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq qərara alır:
"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 704 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:
1. 1-ci maddənin mətni birinci hissə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:
"Ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir.
Birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və (və ya) ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir.".
2. 2-ci maddə üzrə:
2.1. birinci hissənin birinci abzasında "Bələdiyyələrin" sözü "Bu Qanunun 1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulan halda bələdiyyələrin" sözləri ilə əvəz edilsin;
2.2. aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:
"Bu Qanunun 1-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulan halda bələdiyyələrin birləşdirilməsi aşağıdakı qaydada həyata keçirilir:
1) birləşən hər bir bələdiyyə birləşmə ilə bağlı rəyini baxılmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;
2) Azərbaycan Respublikasının Milli Məclisi əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyədə yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla həmin bələdiyyənin digər bələdiyyə ilə birləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə qərar qəbul edir.
Bu maddənin ikinci hissəsində müəyyən olunmuş qaydada yaranan bələdiyyənin adı birləşən bələdiyyələrin arasında əhalisinin sayı ən çox olan bələdiyyənin adına uyğun müəyyən edilir.".
3. 3-cü maddənin mətnində "maddəsində" sözü "maddəsinin birinci hissəsində" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2024-cü il
№ 1128-VIQD

Yerli özünüidarəetmə fəaliyyətinin səmərəliliyinin artırılması, dayanıqlı və yüksək maliyyə imkanlarına malik yeni bələdiyyələrin yaradılması, habelə yerli əhəmiyyətli məsələlərin həllində onların fəaliyyətinin genişlənməsinə, yerli sakinlərin məmnunluğunun təmin edilməsinə və dövlətin yerli problemlərin həlli sahəsində yükünün azalmasına şərait yaradılması məqsədilə "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli Qanunu qəbul edilmişdir.

Həmin dəyişikliklərlə Qanuna ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin sosial-iqtisadi vəziyyəti, tarixi və digər xüsusiyyətlər nəzərə alınmaqla digər bələdiyyəyə birləşməsi ilə bağlı yeni müddəa əlavə olunmuş və ölkə üzrə fəaliyyət göstərən bələdiyyələrin sayı birləşmə nəticəsində 1606-dan 685-ə endirilmişdir.




Bələdiyyələrin birləşməsi ilə bağlı Ədliyyə Nazirliyinin üzərinə mühüm vəzifələr düşür. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və

başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nın tələblərinə əsasən bələdiyyələr birləşərkən, ayrılarkən və ləğv edilərkən onlara məxsus mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı əsasında komissiya yaradılır. Komissiyaya Ədliyyə Nazirliyindən olan nümayəndə sədrlik edir.

Bələdiyyələrin birləşməsi və keçirilən növbəti bələdiyyə seçkiləri ilə əlaqədar müvafiq hüquqi maarifləndirmə tədbirləri həyata keçirilməkdədir.

Qeyd olunmalıdır ki, bələdiyyələrin birləşməsi onların xidmətlərinin rəqəmsallaşdırılmasına əlverişli imkan yaradır. İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi bələdiyyələrin idarəetmə keyfiyyətinin artırılmasına, vətəndaşlara daha yaxşı xidmət göstərilməsinə və resurslardan daha effektiv istifadə edilməsinə şərait yaradacaqdır.

Ümumilikdə 2024-cü il ərzində həyata keçirilən tədbirlər ölkəmizdə yerli demokratiyanın inkişafına, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və onların fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsinə xidmət etmişdir.

Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinin yeni çağırışlara uyğun təşkilinə kömək və metodoloji yardım göstərilməsi, inzibati nəzarətin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilir.

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**